## *“Dərman vasitələri haqqında məlumatın verilməsi” elektron xidmətin təlimatı*

Bu xidmət vasitəsilə vətəndaşlar Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatından keçirilmiş dərman vasitələrinin ticarət adı, beynəlxalq patentləşdirilməmiş adı, buraxılış forması, istehsalçısı, dövlət qeydiyyatının tarixi, nömrəsi və qüvvədə olma müddəti haqqında məlumatları əldə edə bilərlər.

Xidmətdən istifadə etmək üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin *sehiyye.gov.az* saytına, Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin *e-sehiyye.gov.az* rəsmi saytına və yaxud Elektron hökümət portalına *e-gov.az* daxil ola bilərsiz. Daha sonra Səhiyyə Nazirliyinin təqdim etdiyi elektron xidmətlərdən “*Dərman vasitələri haqqında məlumatın verilməsi*” elektron xidmətini seçmək lazımdır. (Şəkil 1)




***Şəkil 1***

Xidmətlər siyahısından "*Dərman vasitələri haqqında məlumatın verilməsi*" xidmətinin seçdikdən sonra açılan yeni formanın içində "*Dərman adı*" sətrində sizə lazım olan dərman vasitəsinin adını yazın. Məsələn, "*Aspirin*" adlı dərman vasitəsinin adını yazdıqdan sonra "*Göndərmək*" düyməsindən istifadə etməlisiniz.(Şək.2)




Şəkil 2

Açılan yeni formanın içində daxil etdiyiniz dərman vasitəsi haqqında olan məlumatlar cədvəl şəklində əks olunacaqdır.(Şək.3)



Dərman vasitələri haqqında məlumat verilməsi

Əks əlaqə | İstifadə təlimatı | Reqlament | Video təlimat | Baxış sayı: 59732

**Elektron xidmətin məzmunu:** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatından keçirilmiş dərman vasitələrinin ticarət adı(əmtəə nişanı), beynəlxalq patentləşdirilməmiş adı, buraxılış forması, istehsalçısı, dövlət qeydiyyatının tarixi, nömrəsi və qüvvədə olma müddəti haqqında məlumatların istifadəçilər tərəfindən əldə olunmasından ibarətdir.

**Dərman vasitələri haqqında məlumatın əldə edilməsi**

**Dərman adı**

Axtar

| Dərman vasitəsi | BPA və doza | Buraxılış forması | İstehsalçı ölkə | Dövlət qeydiyyatının tarixi | Nömrəsi | Qüvvədə olma müddəti |
|---|---|---|---|---|---|---|
| ASPİRİN-C | Acetylsalicylic acid 400mg, Ascorbic acid 240mg | fışıldıyan tabletlər №10 | Bayer Bitterfeld GmbH, Almaniya | 2010-08-03 | DV №10-00528 | 2015-08-03 |
| ASPİRİN KARDİO | Acetylsalicylic acid 100mg, 300mg | örtüklü tabletlər №20, №28, №56 | Bayer Farma AG, Almaniya/Bayer Bitterfeld GmbH, Almaniya | 2012-12-30 | DV №12-01050 | 2017-12-30 |

***Şəkil 3***

Bu xidmət vasitəsilə əldə etdiyiniz məlumatları PDF formatında kompüterinizin yaddaşında saxlaya və çap edə bilərsiniz.

*“Təkrarlamaq*” düyməsindən istifadə etdikdə isə, bu xidmətin ilkin formasına qayıdıb, başqa dərman vasitəsinin adını yaza bilərsiniz.

Azərbaycan Respublikası, Bakı şəhəri,

AZ 1022 akad. M.Mirqasımov küç. 1A

Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi

Tel: (+99412) 596 80 44, (+99412) 431 38 2

www.e-sehiyye.gov.az